# Həmrəylikdən qələbəyə gedən şanlı yol



XX əsrin 80-ci illərinin axırlarında dünyada baş verən qlobal dəyişikliklərlə əlaqədar bir çox xalqların, o cümlədən Azərbaycan xalqının həmrəylik hissi gücləndi. İctimai həyatın demokratikləşməsi istiqamətində genişlənən xalq hərəkatı zəminində ilk olaraq Naxçıvan Muxtar Respublikasında 1989-cu ilin noyabrında Şimali və Cənubi Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhəd çəpərlərinə qarşı xalqın etirazı başlandı. Beləliklə, "Sərhəd hərəkatı" adı ilə başlanan bu siyasi aksiya 1989-cu il dekabrın 31-də azərbaycanlıların həmrəylik hərəkatına çevrildi.

## Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi yol

1990-cı il noyabrın 3-5-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan Türk Dərnəkləri Qurultayı isə Naxçıvan Muxtar Respublikasında başlanmış hərəkatın davamı kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. Qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il həmrəylik günü kimi qeyd edilməsi zəruriyyəti irəli sürüldü. Bütün bunları nəzərə alaraq Ümummilli Lider Heydər Əliyevin başçılıq etdiyi Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli iclasında 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi qərara alındı. Naxçıvan MR Ali Məclisinin bu qərarını əsas tutaraq Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası 1991-ci il dekabrın 25-də qərara gəldi ki, hər il dekabrın 31-i dünyada yaşayan azərbaycanlıların həmrəylik günü kimi qeyd edilsin.

Bu qərar, ümumiyyətlə, müstəqil bir dövlət kimi dünyada Azərbaycan adlı bir dövlətin, bir millətin varlığı, Heydər Əliyev siyasi xəttidir. Bu gün hər bir azərbaycanlı, hər bir vətəndaşımız bu dövlətin bir parçası kimi Heydər Əliyevlə fəxr edir. Çünki Heydər Əliyev dühası, siyasəti, məntiqi, siyasi xətti olmasaydı, bu gün müstəqil Azərbaycan da olmazdı. Heydər Əliyev bu millətə ikinci nəfəs, ikinci həyat verdi, müstəqilliyin dadını yenidən xalqımıza qaytardı.

2001-ci il noyabr ayının 9-10-da keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı dünya azərbaycanlılarının birləşdirilməsi, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması istiqamətində mühüm hadisəyə çevrildi. Qurultayda dərin məzmunlu nitq söyləyən Ulu Öndər Heydər Əliyev dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, o cümlədən ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirdi. "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gündə fəxr edirəm ki, mən azərbaycanlıyam!" - deyən Ulu Öndərin bu sözləri hər bir həmvətənimiz üçün milli qürur rəmzinə çevrilmişdir.

Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından sonra dünya azərbaycanlılarının arasında həmrəyliyin möhkəmləndirilməsi istiqamətində daha məqsədyönlü işlər aparılmışdır. Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil şəkildə əlaqələndirilməsində, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təmin olunmasında, bu sahədə mövcud problemlərin aradan qaldırılmasında mühüm rol oynayır. Azərbaycanlıların həmrəyliyi, birliyi yönümündə həyata keçirilən bu və ya digər tədbirlər artıq öz səmərəsini verir. Belə ki, Azərbaycan diasporu beynəlxalq aləmdə milli maraqlarımızın təmin olunmasında, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə obyektiv şəkildə çatdırılmasında böyük təsir gücünə malik bir qüvvəyə çevrilmişdir.

"Hazırda azərbaycanlıların həmrəyliyinin və mütəşəkkilliyinin güclənməsi, ümummilli ideyalar ətrafında birləşməsi üçün daha geniş imkanlar yaranmışdır. Azərbaycan dövləti nüfuzlu iqtisadi və siyasi gücə çevrilmiş, bütün dünyada yaşayan soydaşlarımız qarşısında parlaq perspektivlər açılmışdır. İndi biz dünya azərbaycanlılarının ümumbəşəri və mili-mədəni hüquqlarının, beynəlxalq konvensiyalarda təsbit edilmiş insan haqlarının qorunmasını təmin etmək üçün daha təsirli vasitələrə malikik. Azərbaycanın siyasi rəhbərliyi dünya azərbaycanlılarının Vətənimizə və xalqımıza mənsubluq hissini gücləndirmək, onların ölkəmizin iqtisadi, mədəni həyatında hərtərəfli iştirakını təmin etmək üçün bütün zəruri tədbirləri görəcəkdir", - deyən Prezident İlham Əliyevin bu sözləri Azərbaycan dövlətinin bu mövzuda necə qərarlı olduğunu sübut edir.

Cənab Prezident bu yaxınlarda İranla və orada yaşayan soydaşlarımızla bağlı mesajlar verdi və Tehran rejiminin Bakıya qarşı haqsız mövqe nümayiş etdirməsindən sonra ilk dəfə bu qədər açıq danışaraq hər şeyi öz adı ilə adlandırdı. Birincisi, Arazın o tayındakı soydaşlarımızın Azərbaycan xalqının bir hissəsi olduğunu bəyan etdi. Cənab Prezident bundan öncəki çıxışlarında onlar haqda "40 milyon soydaşımız" - deyə bəhs etmişdi, indi "İranda yaşayan azərbaycanlılar" deməklə daha da konkretləşdirdi. İkincisi, əsas mesaj ondan ibarət oldu ki, "İranda yaşayan azərbaycanlıların müdafiəsi üçün əlimizdən gələni edəcəyik" sözləri ilə Azərbaycanın xarici siyasətində Cənubi Azərbaycan istiqamətini elan etməklə cənubdakı azərbaycanlıların müdafiəsini üzərinə götürdü. Daha sonra soydaşlarımızın müdafiəsi üçün hansı addımların atılacağının da mesajını verdi. Bizim cənubdakı soydaşlarımızın ana dilində təhsil almaq hüququnun təmin edilməsi uğrunda mübarizəyə dəstək verəcəyini bildirdi.

Həmrəylik bayramı ilk növbədə azərbaycançılıq ideologiyasına söykənir. Son illərdə bu ideologiya müstəqil Azərbaycanın çiçəklənməsinə və dünya azərbaycanlılarının özünüdərkinə təkan verən güclü bir amilə çevrilmişdir. Azərbaycançılıq ideologiyası ətrafında birləşən hər bir soydaşımız harada yaşamasından asılı olmayaraq, ana Vətənin inkişafına, onun dünya birliyində layiqli yer tutmasına və tanınmasına, mədəniyyətimizin təbliğinə, ölkəmizlə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasına töhfə verməyi özünün mənəvi borcu sayır.

## 44 günlük savaşımız qürur mənbəyimizdir

Ermənistanın 27 sentyabr 2020-ci il tarixində mülki əhaliyə qarşı hücumlarına cavab olaraq başladığı Vətən müharibəsində xalqımızın 30 illik həsrətinə 44 gündə son qoyuldu. Erməni silahlılarının əməlləri Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusunu əks tədbirlər görməyə vadar etdi. Prezidentin sərəncamı ilə Azərbaycanın bütün ərazisində hərbi vəziyyət elan edildi. 2020-ci il 28 sentyabr tarixində imzalanmış sərəncama əsasən respublikada qismən səfərbərlik elan olundu. Ordumuzun həyata keçirdiyi "dəmir yumruq" əməliyyatının ilk günlərində Füzuli, Cəbrayıl və Tərtər rayonlarının bir çox kəndlərini o cümlədən Murovdağ istiqamətindəki strateji yüksəkliklər azad edildi. Vətənpərvər oğullarımızın ermənilərin hücumlarını dəf etməsi və əks-hücuma keçərək düşmənə sarsıdıcı zərbələr endirməsi xalqımızın qələbə əzminin nümayişi oldu. İllərlə yaşadığımız ağrı-acılar bir anda sevincə çevrildi.

Öz cəsarəti, igidliyi ilə vətən torpağını azad edən və qətiyyəti ilə düşməni dizə gətirən Azərbaycan Ordusunun qəhrəmanlığını xalqımız yüksək qiymətləndirir. Dünyanı öz çirkin bəd əməlləri ilə əsas həqiqətlərdən yayındırmaq istəyən xain düşmən ilahi həqiqəti aldada bilmədi. Azərbaycan torpaqlarını kənd-kənd, qarış-qarış işğaldan azad etdi. Uzun illərdən sonra doğma torpaqlarımızda üçrəngli şanlı bayrağımız dalğalandı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi və ordumuzun şücaəti hesabına qazandıq. Ona görə də 44 günlük qəhrəmanlıq savaşımız tarixboyu qürur mənbəyimiz olacaqdır.

Bu, "Qarabağ Azərbaycandır və nida", - deyən Qalib Sərkərdəmizin "dəmir yumruq" siyasəti ilə, güclü ordumuzun qəhrəman əsgər və zabitlərinin rəşadəti ilə qazandığımız Zəfərdir. 8 Noyabr Zəfər Günü 44 günlük Vətən müharibəsində Vətən uğrunda canından, qanından keçən əsgər və zabitlərimizin şəhidlik zirvəsinə ucaldığı milli qürurumuzun, yenilməzliyimizin nümayiş etdirildiyi gündür. Bu, xalqımızın Ali Baş Komandan, Qalib Sərkərdə İlham Əliyevin ətrafında sıx birləşməsidir.

Prezident İlham Əliyev hər işğaldan azad olan torpaq müjdəsini səsləndirəndə "Qarabağ Azərbaycandır!" deyərkən simvolik olaraq yumruğunu da qaldırırdı. Bunun da məntiqli mənası odur ki, həmrəy olub bir yumruq kimi birləşib Qarabağı düşməndən azad etdik. "Dəmir yumruq" həmrəyliyimizin simvoluna çevrildi.

Qələbədən sonra Şuşada "Xarıbülbül" Festivalında Prezident İlham Əliyev çıxışında belə deyib: "Əziz dostlar, bu gün ölkəmizin tarixində əlamətdar bir gündür. Uzun fasilədən sonra Cıdır düzündə - hər birimiz üçün müqəddəs olan Şuşada "Xarıbülbül" Festivalı keçirilir. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Biz bu günü 30 il səbirsizliklə gözləmişik, 30 il Vətən həsrəti ilə yaşamışıq. 30 il ədalətsizliklə barışmalı olurduq, amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə biz heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" Musiqi Festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu bizim hamımızın qələbəsidir. Mən xahiş edirəm ki, Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini birdəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" Festivalı Şuşada hər il keçiriləcək. Builki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir. Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha bir bütün dünyaya buradan - Şuşadan, qədim torpağımızdan mesaj veririk. Ölkələr belə inkişaf etmədilər, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur. Biz dünyanın müxtəlif yerlərində baş verən hadisələri izləyirik, görürük və deyə bilərəm ki, bir neçə il bundan əvvəl bu gün mövcud olan vəziyyəti görürdük. Ona görə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə, o cümlədən ölkəmizdə keçirilmiş çoxsaylı tədbirlərdə multikulturalizmi təbliğ edirdik, müxtəlif xalqların birgəyaşayışını təbliğ edirdik və deyirdik ki, bu mümkündür. Azərbaycanın timsalında deyirdik ki, bu mümkündür və göstərirdik, öz təcrübəmizi bölüşürdük, öz fikirlərimizi bölüşürdük və hesab edirəm ki, bizim bu səylərimiz nəticə verdi. Çünki bu gün dünyada bu məsələ ilə bağlı daha dəqiq təsəvvür vardır".

## Həmrəyliyimizi daha da sarsılmaz edən siyasət

2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və Türkiyə diaspor təşkilatları rəhbərlərinin birinci forumu bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilmiş, Azərbaycan Prezidenti İlham Əliyevin türk dünyasının birliyinə verdiyi əhəmiyyətin parlaq təzahürü kimi tarixə düşmüşdür.

Dövlətimizin diaspor siyasəti, xaricdəki həmvətənlərimizin daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. İndi soydaşlarımız yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, düşmənlərin ideoloji təxribatlarının qarşısının alınmasında da qətiyyət nümayiş etdirirlər.

Ulu Öndərimiz xaricə səfərləri zamanı proqramının zənginliyinə baxmayaraq, həmin ölkələrdə yaşayan həmvətənlərimizlə görüşlərə də vaxt ayırıb, onlara tövsiyələrini verib. Hazırda Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu bu istiqamətdə də uğurla davam etdirir.

Zəfər döyüşlərində xalqımız həmrəylik nümayiş etdirdi. Xaricdə yaşayan azərbaycanlılar aidiyyəti qurumlara çoxsaylı müraciətlər edərək ərazilərimizin işğaldan azad edilməsində ordumuzla çiyin-çiyinə dayanmaq istədiklərini bildiriblər.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi tarixin bütün dövrlərində aktual məsələlərdən biri kimi nəzərdən keçirilmişdir. Azərbaycan xalqı hər zaman öz vətənini sevən, torpağının hər qarışı uğrunda canından keçməyə hazır olan qəhrəmanlar yetirmişdir. Gənc nəslin yüksək əxlaqi keyfiyyətlərə malik olan, ahəngdar inkişaf etmiş, ictimai cəhətdən fəal olan, əxlaqi saflığı və fiziki kamilliyi özündə birləşdirən şəxsiyyət kimi tərbiyə olunması cəmiyyətin ən ümdə vəzifələrindən biridir. Ümummilli Liderimiz Heydər Əliyev milli şüurdan danışarkən kiçik yaşlardan hər bir vətəndaşın vətənpərvərlik hissləri ilə yetişdirilməsinin vacibliyini qeyd etmişdir.

Savadlı gənc mütəxəssislərin hazırlanması orta məktəbdən başlayır. Dövlətimiz bu məsələyə də xüsusi diqqət yetirir. Azərbaycanda büdcənin ən böyük hissəsi təhsil xərclərinə yönəldilibdir. Son illər həm dövlət vəsaiti hesabına, həm də Heydər Əliyev Fondunun hesabına yüzlərlə məktəb tikilib. Məktəb tikintisi bu gün də sürətlə davam etdirilir. Azərbaycanda bütövlükdə təhsil infrastrukturu yeniləşir. Böyük əhəmiyyət kəsb edən kompüterləşmə proqramı həyata keçirilir. Hər bir məktəbdə kompüter sinfi yaradılır və internetə çıxış təmin olunur. Nəticədə gənclərimiz, şagirdlərimiz, tələbələrimiz dünyada baş verən bütün hadisələri yaxından izləyir, yeni müasir informasiya texnologiyalarına yiyələnirlər. Onlar dünyada gedən prosesləri təhlil etmək üçün imkanlar qazanırlar. Bu gün Azərbaycan gəncləri xarici ölkələrə təhsil almağa, biznes qurmağa, təcrübə qazanmağa, işləməyə və digər faydalı işlər görməyə gedirlər. Xaricdə çalışan gənclərimizin böyük hissəsi bir neçə ildən sonra vətənə dönərək əldə etdikləri təcrübəni, işgüzarlığı və iqtisadi sistemin xüsusiyyətlərini ölkəmizdə tətbiq edirlər.

Azərbaycan gənclərinin gücünü müasir, inkişaf etmiş, yüksəkintellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Ulu Öndər Heydər Əliyevin gənclər siyasəti əsrlərboyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübarizruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Əlbəttə, milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Ulu Öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Ümummilli Liderimiz həmişə gənclərimizə böyük ümidlər bəsləyir, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Həyatı boyu, respublikaya rəhbərliyinin bütün dövrlərində Ulu Öndər sağlam, normal gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsinə xidmət etdi. Ulu Öndərin ən böyük xidmətlərindən biri də o idi ki, gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir, bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi. Dahi şəxsiyyət gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etmişdi.

Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən gənclər siyasətinin əsas məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin edib. "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Dövlət gənclər siyasəti haqqında" qanun, fərman və sərəncamlar, həmçinin, "Gənc ailə", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı" və digər proqramlar çərçivəsində ölkəmizdə gənclərin sosial-maddi şəraitinin yüksəldilməsi, ictimai fəallığının artırılması istiqamətində mühüm fundamental baza olub.

Cənab Prezident gəncliyin aktiv sosial təbəqə kimi ictimai həyatdakı roluna mühüm əhəmiyyət verərək bildirir ki, gəncləri gördükcə daha da ruhlanıram, siz mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Azərbaycan Prezidenti gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Bu siyasət gənclərin vətənpərvər vətəndaş kimi formalaşmasına yol açır və milli həmrəyliyimizi gücləndirir.

**_Sadiq QURBANOV,_**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***